# Fədakarlar və peşəkarlar

*Tarixən bütün dövrlərdə cəmiyyətlərdə mövcud olan dəyərlər zamana müvafiq olan hüquqla tənzimlənib. Çünki dövlət mükəmməl hüquqa əsaslananda güclənir, vətəndaş yalnız demokratik və ədalətli hüquqlarla azad olur. Azərbaycan dövlətçilik tarixində də bu amillər özünü aydın göstərir. Hüquq-mühafizə sistemində isə polisin rolu həmişə xüsusi əhəmiyyət kəsb edib. Yarandığı gündən indiyədək çətin və şərəfli yol keçmiş, müstəqil dövlətimizin ən mühüm atributlarından, əsas sütunlarından olan Azərbaycan polisinin iyulun 2-də 107-ci ildönümü qeyd edilir. Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub.*

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ilk olaraq Müvəqqəti Milli Hökumət yaradıldı. Ölkənin hüquq-mühafizə sisteminin yaradılması və möhkəmləndirilməsi istiqamətində lazımi addımlar atıldı. Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin sədri, həm də daxili işlər naziri vəzifəsini öz üzərinə götürdü. Mayın 29-da DİN digər nazirliklər kimi fəaliyyətə başladı. DİN-in başlıca vəzifələri ölkədə daxili sabitliyə nail olmaq və hüquq normalarına riayət olunmasını təmin etmək, cinayətkarlıqla mübarizə aparmaq, milliyyətindən və dinindən asılı olmayaraq bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını qorumaq, milli ordu, təhlükəsizlik qüvvələri ilə birlikdə ərazi bütövlüyümüzə və suverenliyimizə qəsd etməyə çalışan hər hansı təcavüzkar qüvvələrə qarşı mübarizə aparmaqdan ibarət idi.

Bu gün Azərbaycanda ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişafa və xalqın rifahına əsaslanan mütərəqqi siyasət kursu möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli liderimizin müəyyən etdiyi strateji hədəflər, qarşıya qoyduğu vəzifələr reallığa çevrilir. Azərbaycan hazırda hər sahədə dünyanın müasir və inkişaf etmiş ölkələri ilə müqayisə olunan səviyyəyə çatmışdır. Respublikanın şəhər və rayonları, qəsəbə və kəndləri tanınmaz dərəcədə dəyişmiş və müasirləşmiş, sosial problemlər öz həllini tapmış, xalqın rifahı yüksəlmişdir. 30 ildən çox müddətdə davam edən Qarabağ problemi Azərbaycan Prezidentinin müdrik siyasəti və milli ordunun şücaəti sayəsində həll edilmiş, respublikamızın ərazi bütövlüyü təmin olunmuşdur.

Dövlət başçısının tövsiyə və göstərişlərini gündəlik fəaliyyətində əsas tutan Daxili İşlər Nazirliyi bu gün dünyanın inkişaf etmiş ölkələrinin oxşar qurumları ilə geniş əlaqələr qurur, təcrübə mübadiləsi aparır. İndi Azərbaycan polisi bir vaxtlar yalnız xarici filmlərdə gördüyümüz, qabaqcıl dünya ölkələrinin polislərinin istifadə etdiyi müasir texnika, silah-sursat, rabitə vasitələri, elektron avadanlıqlarla təmin edilmişdir. Daxili işlər orqanlarına qəbul müsabiqə əsasında, tam şəffaflıqla həyata keçirilir, polis xidmətinə yalnız ən yaxşılar qəbul edilir.

Prezident İlham Əliyev Azərbaycan polisinin peşəkarlıq səviyyəsini, texniki təchizatını, sosial rifahını daim diqqətdə saxlayır. Daxili işlər orqanları əməkdaşlarının maaşlarının mütəmadi olaraq artırılması, öz əməyi, nümunəvi xidməti ilə seçilənlərin irəli çəkilməsi, mükafatlandırılması, xüsusi rütbələr verilməsi bu ali diqqətin və qayğının nəticəsidir.

Hazırda Azərbaycan iqtisadi inkişafla yanaşı, cinayətkarlığın aşağı səviyyəsi, təhlükəsizliyin etibarlı təmin olunması və insan haqlarının qorunması sahələrində də beynəlxalq aləmin diqqət mərkəzindədir. Respublikamızda Avrora və dünya əhəmiyyətli tədbirlər, beynəlxalq idman yarışları həyata keçirilir. Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi isə Azərbaycan polisinin üzərinə yeni vəzifələr qoyur və onlar öz xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlirlər. Daxili işlər orqanlarında aparılan struktur dəyişiklikləri, yeni xidmət sahələrinin açılması, müasir tələblərə cavab verən mükəmməl kadr potensialının yaradılması, texniki təchizatın və iş şəraitinin yaxşılaşdırılması böyük nailiyyətlərdir.









Azərbaycan polisi dövləti qoruyur. Bu müqəddəs amallar uğrunda şəhidlik zirvəsinə yüksəlməkdən çəkinmir. Qanlı 20 Yanvar faciəsində ilk şəhid polis əməkdaşı Telman Bağırov olub. 2015-ci ildə paytaxtın Binəqədi rayonunda çoxmərtəbəli yaşayış binasında güclü yanğın zamanı 4 nəfəri xilas edən baş serjant Orxan Əzimin qucağında körpə uşaq olan fotosu dünya KİV-lərində "qəhrəman polis" altyazısı ilə dərc olundu. Eyni zamanda Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsində DİN-in Daxili Qoşunları şücaətlər göstərib, düşmənə heç vaxt unutmayacağı sarsıdıcı zərbələr endirib. Həmin döyüşlər zamanı DİN-in "Pələng" və "Şahin" adlanan xüsusi təyinatlı dəstələrinin qəhrəmanlığı müqəddəs savaşın tarixinə qızıl hərflərlə yazılıb. 2023-cü il 19-20 sentyabr tarixlərində Qarabağ ərazisində keçirilən lokal antiterror tədbirlərində də Daxili Qoşunların 12 hərbi qulluqçusu yeni qəhrəmanlıq səhifəsi yazaraq, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpası ilə nəticələnən şanlı salnaməyə öz qanları ilə imza atıblar.

Ümumiyyətlə, polis və Daxili Qoşunlar milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayanır, insan hüquq və azadlıqlarının müdafiəsi üçün səylə çalışırlar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfərlə nəticələnən Vətən müharibəsi günlərində Daxili İşlər Nazirliyinin şəxsi heyəti ölkədə hərbi vəziyyət rejimini etibarlı şəkildə təmin edib, hazırda isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirir. Belə ki, işğaldan azad edilmiş rayonlarda polis şöbələrinin fəaliyyəti bərpa edilib, şəxsi heyətin öz vəzifələrini lazımi qaydada yerinə yetirməsi üçün zəruri texniki-məişət şəraiti yaradılıb.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edən daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Eyni zamanda, vətəndaşların mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq ona bəslənən inam və etimadı doğruldur. Prezident İlham Əliyev tərəfindən peşə bayramları ərəfəsində şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi və xidmətdə fərqlənən əməkdaşların dövlət mükafatlarına layiq görülməsi barədə qəbul etdiyi qərarlar hər bir polis əməkdaşının gərgin əməyinə verilən ali qiymətin əyani təsdiqidir.

Bəli, Polis - cəmiyyətin təhlükəsizliyinin, əmin-amanlığının, ədalətin və insan hüquqlarının keşiyində dayanır. O, sadəcə uniforma geyinmiş dövlət qulluqçusu deyil - millətə xidməti hər şeydən üstün tutan, vəzifə borcunu layiqincə yerinə yetirən, əmin-amanlığın, sabitliyin keşikçisidir. Polis - hər kəsin sevinclə, ailəsi ilə bir araya gəldiyi bayram günlərində evində süfrə başında deyil, küçələrdə, meydanlarda, yolların kənarında böyük məsuliyyətlə xidmət edən qəhrəmandır. Polisin xidməti saatla ölçülmür. O, iş vaxtı bitəndə belə evə getmək üçün tələsmir. Çünki təhlükə vaxt tanımır, fövqəladə hallar gündəlik rejimə tabe olmur. Harada bir qayda pozular, bir haqsızlıq baş verərsə, harada bir insan kömək istəyərsə - polis oradadır. Onlar üçün xidmət - bir borc, bir şərəf, fədakarlıqdır, Vətənə və xalqa sevgidir.

**Nurəngiz ADİLQIZI,**
**"Respublika".**